**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.151**

**FİZZƏ QULİYEVA***

# NAXÇIVANIN SON TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜ BƏZƏK ƏŞYALARININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

*Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü bəzək əşyalarının estetikası bu dövrdə yaşayan tayfaların ideoloji görüşləri və inanc sistemini, o cümlədən sənətkarlıq ənənələrini də əks etdirir. Bəzək əşyalarında həndəsi, o cümlədən astral, zoomorfik elementlərin əks olunması su, günəş, ilan, keçi kultlarının inkişafından qaynaqlanaraq onların qoruyucu funksiyası ilə əlaqədar olmuşdur. Ənənəvi olaraq bəzək əşyalarının böyük əksəriyyəti qəbirlərdən aşkar olunmuşdur. Dəfn adətləri zamanı ölən şəxsin bəzək əşyaları ilə birgə gömülməsi əbədi yaşam, o biri dünyanın mövcudluğu ilə bağlı görüşlərindən qaynaqlanaraq formalaşmışdır. Qədim tayfalar inanırdılar ki, bəzək əşyaları öləndən sonra da insan ruhunu bəd ruhlardan, şər qüvvələrdən qorumaq gücünə malikdir. Şübhəsiz ki, bu cür əşyaların gücünü, qüdrətini artırmaq üçün ovsun duaları oxunaraq istifdə olunmuşdur. Son Tunc və Erkən Dəmir dövrü bəzək əşyalarının estetikası qədim Naxçıvan tayfalarının mədəniyyətini, incəsənətini, dünyagörüşünü yaşadan sənət əsərləridir. Bəzək əşyalarının estetikası Xocalı-Gədəbəy tayfalarının estetik görüşləri ilə də olduqca yaxın ortaq cəhətləri paylaşmışdır.*

***Açar sözlər:*** *Naxçıvan, bəzək əşyası, qədim dövr, estetika, Son Tunc və Erkən Dəmir dövrü, naxış, inanc/*

Naxçıvan diyarının Son Tunc və Erkən Dəmir dövrü bəzək əşyaları bədii zənginliyi, estetik məziyyətləri ilə diqqəti cəlb edir. Bu dövrün bəzək əşyalarını müxtəlif səpkili boyunbağılar, üzük, sırğa, bilərzik, sancaq və s. təşkil etmişdir. Həmin əşyalar qoruyucu xüsusiyyətə malik olduğu inancından qaynaqlanaraq aid olduğu şəxsin üzərində daşınır, öləndən sonra həmin əşyalarla birgə dəfn olunurdu. Ənənəvi olaraq bəzək əşyalarının böyük əksəriyyəti qəbirlərdən aşkar olunmuşdur. Dəfn adətləri zamanı ölən şəxsin bəzək əşyaları ilə birgə gömülməsi əbədi yaşam, o biri dünyanın mövcudluğu ilə bağlı görüşlərindən qaynaqlanaraq formalaşmışdır.

Bəzək əşyaları əsasən tuncdan hazırlansa da müxtəlif materiallardan olanlara da rast gəlinmişdir. Bu dövrdə bəzək əşyalarında olan say çoxluğu, bədii zənginlik metallurgiya sahəsində əldə olunmuş nailiyyətlərlə, o cümlədən tələbatın artması, dünyagörüşünün inkişafı ilə əlaqədar olmuşdur. Bəzək əşyalarının estetik baxımdan daha da zənginləşdirilməsində müxtəlif naxışlarla yanaşı muncuqlar da ideal vasitə olmuşdur. Metaldan hazırlanmış sırğa, bilərzik, boyunbağı, saç bəzəklərini bəzəmək üçün müxtəlif tipli muncuqlardan istifadə olunmuşdur. Muncuqlar tunc, əqiq, sümük, pasta, dentalium, sprea və konus tipli dəniz heyvanlarının qabığından hazırlanmışdır. Bu cür materiallardan hazırlanmış muncuqlara Sarıdərə və Kolanı nekropolunun əşyaları arasında rast gəlmək mümkündür [1, s. 98, s. 115].

Ənənəvi olaraq muncuqlar da semantik məna yükünə malikdir. Dəniz heyvanlarının qabığı, o cümlədən balıqqulağından hazırlanan muncuqlar su stixiyası ilə əlaqədar olmuşdur. Yaşam, həyat qaynağı olan suya inam tarixin ilk dövrlərindən mövcud olmuşdur. Aydındır ki, muncuqlar praktiki və dekorativ əhəmiyyətə malik olmamış, qoruyucu əşya kimi istifadə olunmuşdur. Onlar qadın və kişi fərqi qoyulmayaraq hər iki cinsin nümayəndəsi tərəfindən də istifadə olunmuşdur.

Muncuqlar hazırlanarkən onların naxışlı olması da diqqətdə saxlanmışdır. Əşyaların naxışlı olanı daha müqəddəs bir yükə malik olduğu üçün onlarda böyük bir hikmət gizlənir. Muncuqları adətən cızma və deşik naxışlar bəzəmişdir. Kolanı nekropolundan aşkar olunmuş çevrəşəkilli muncuq cızma naxışları ilə diqqətəlayiqdir [1, s. 115]. Dəniz heyvanının qabığından hazırlanmış bu muncuğun mərkəzinə deşik açılmış və ətrafına beş ədəd olmaqla konsentrik çevrələr cızılmışdır. Dairə günəşin simvolu olaraq ibtidai dövr sənət abidələrində, əşyalarda çox rast gəlinmişdir. Konsentrik dairələr isə kosmik dünya modelinin üçhissəli strukturudur. Dairələri əmələ gətirən xətlər kosmik məkanı bir-birindən ayıran və qarşılıqlı əlaqə yaradan bir qatdır. Mərkəzi dairə günəşi, ikinci dairə mədəni məkanı, üçüncü isə onun periferiyasını göstərir [2, s. 198]. Kolanı muncuğunun üzərində beş dənə konsentrik dairənin verilməsi kosmik dünyanın çoxluğunu, təkrarını simvolizə edir.

İncə bəzək əşyalarının hazırlanmasında qəlibkarlıq müstəsna əhəmiyyət kəsb etmişdir. Xüsusilə mum qəliblərdən istifadə olunması onların bədii keyfiyyətini daha da artırmış və estetik mükəmməliyyə nail olunmuşdur. Təbii ki, qəlibçiliklə yanaşı döymə, kəsmə və s. texnoloji üsullara

da müraciət olunmuşdur. Spiralşəkilli bəzəkli lent borular, həmçinin sadəliyi ilə seçilən, uca doğru daralan silindrik muncuqların həllində mum qəlibkarlıq üsulu tətbiq olunmuşdur. Bu qəbildən olan bəzək əşyaları Sarıdərə və Kolanı nekropollarından aşkar olunmuşdur. Analoji bəzək əşyaları Azərbaycan abidələrindən məlumdur [1, s. 98, 115; 7, s. 81; 8, s. 11].

Boyunbağı və sırğaların bədii-estetik çalarlarının zənginləşməsində muncuqlar, asqılar xüsusi rola malik olmuşdur. Bu qəbildən olan boyunbağı və sırğalar çəngəlşəkilli formaya malikdir. Bu qəbildən olan boyunbağılar nazik məftildən hazırlandığı üçün onlara muncuq və asqıların keçirilməsi rahat olmuşdur. Muncuq və asqılar materiallarına, bədii biçimlərinə, naxış elementlərinə görə bir-birindən fərqlənirlər. Çəngəlşəkilli ucluqlu boyunbağı və sırğalara sırğalara balıqqulağı, əqiq və pasta muncuqlar, bəzən isə tuncdan hazırlanmış toppuz asqı, spiral və zəncirlər taxılmışdır. Balıqqulaqları bir qayda olaraq trapesiya formasına salınsa da orjinal formalardan da istifadə olunmuşdur [2, s. 180]. Bayəhməd nekropolundan aşkar olunmuş sırğalardan birinin ucları bir-birinə sarınmışdır [1, s. 119]. Onun üzəri əqiq muncuqlarla bəzədilmişdir. Nazik tunc məftildən hazırlanmış ikinci sırğanın üzərinə düzbucaq formalı tunc lövhə asılmışdır [1, s. 119].

Halqa formasında hazırlanan tunc bilərziklər müxtəlif cür olub uclarının bitişik, aralı, bir-birinin üzərinə oturdulmuş şəkildə olmasına və bəzəmələrinə, həmçinin kəsikdə yuvarlaq, yarımyuvarlaq, dördbucaq, düzbucaq forma və quruluşlarına görə fərqlənirlər. Qızılburun və Qarabağlar nekropollarının bilərzikləri kənarlardan qabırğaşəkilli formaya salınmış, üst hissələri dərininə kəsiklərlə bəzədilmişdir [4, s. 114]. Şübhəsiz bu cür yüksək bədii həlli ilə seçilən bilərziklər qəliblər vasitəsilə hazırlana bilərdi. Dərininə kəsikləri isə qəlibdən sonrakı prosesə aid etmək olar. Analoji bilərziklər Gədəbəy, Çovdərə, Xaçbulaq [8, s. 10], Şağuludərə [10, s. 232] və s. abidələrdən məlumdur [9, c. 252].

Bilərziklərin bəzədilməsində kəsmə üsullu dərin gəzlər, fərqli xətlərlə cızmalar aparıcı olmuşdur. Cızma naxışlar fərqli bədii tutumda tətbiq olunmuşdur. Bilərziklərin adətən uc hissələri, bəzən biri, bəzən isə hər ikisi cızmlarla bəzədilmişdir. Bununla yanaşı gövdəsi tamamilə naxışlarla bəzədilmiş bilərziklər də hazırlanmışdır. Onların uc hissələrini bəzəyən cızmalardan biri ziqzaqşəkilli naxışlardır. Bilərziklərin ümümi quruluşunu, bir qrupunun uc hissələrinin ilan başı formasında hazırlanmasını nəzərə alaraq demək olar ki, onlar ilan kultu ilə əlaqəlidir. Ziqzaqşəkilli naxışlar isə ilanın dərisini bəzəyən naxışları simvolizə etmişdir. Qədim Naxçıvan tayfalarının inanc sistemində ilan məhsuldarlığın hamisidir. Tunc dövrü bəzək əşyalarının ilanı yansıtması görünür inasanın da hamisi olmuş, onu bəd ruhlardan, şər əməllərdən qorumuşdur. Gəmiqaya təsvirlərində ilanın keçilərlə, insanla birgə təsvir edilməsi heyvanın da hamisi rolunda çıxış etdiyini göstərir. Yeraltı və yerüstü dünyanın təmsilçisi olan ilan güclü ovsunlayıcı qüvvəyə malikdir. O cildini dəyişə, müxtəlif cür təzahür edə bilər. Folklor nümunələrində rast gəldiyimiz ağ, ilan qara ilan onun həm xeyir, həm də şər təmsilçisi olduğunu göstərir. İlan kultunun formalaşması və inkişafı Tunc dövrü üçün xarakterik olmuş və tayfaların inamının güclənməsində mühüm rol oynamışdır.

Tunc boyunbağılarda bədii həllin mükəmməlliyinə bir qədər artıq diqqət yetirilmişdir. Olduqca hamar həll olunmuş boyunbağılar mum modellər vasitəsilə tökülmüşdür. Onlar kəsikdə dördkünc, dairəvi, oval formalı olan qalın və nazik tunc məftildən hazırlanmışdır. Bu dövrün boyunbağılarında əsasən formanın zəngin görününüşü əsas məsələlə olsa da sadə həlli ilə yadda qalan boyunbağılar da hazırlanmışdır. Qızılburun nekropolunun boyunbağıları məhz bu qəbildəndir. Onlardan birinin hər iki ucu qarmaq formasında geriyə burulmuş, birinin bir ucu ilan başı formasında dəqiqliklə işlənmiş, digəri isə mərkəzdən qalın olub uclara doğru nazikədilmişdir [4, s. 115]. Boyunbağıların bir qrupu gövdə boyunca burulmuş, uc hissələri isə bəzən tamamilə, bəzən də qarmaq formasında geriyə burulmuşdur.

Lentvari formada kəsilmiş və döyülərək incə təbəqə halına salınmış boyunbağıların kənarlarına haşiyə elementləri salınmışdır. Haşiyə elementi kimi nöqtələr döyülərək qabardılmışdır. Bu üsul Tunc dövrü metalişləmə sənətində uzun zaman mövcud olmuşdur. Xocalı-Gədəbəy tayfalarının tunc dövrü bədii tunc məmulatında da bunu aydın görə bilərik. Bayəhməd nekropolundan aşkar edilmiş boyunbağılardan birinin ortası döyülərək dördkünc formaya salınmış, cızma və çərtmə üsulu ilə naxışlanmışdır. Gövdəsinin bəzi qismləri dərin kəsmələrlə xüsusi formaya salınmış, ucları döyülərək yastılanmış və üzərinə doğru qatlanmışdır [2, s. 126].

Çəngəlşəkilli ucluğu olan sırğalardan bir qrupu fərqli forması ilə yadda qalır. Bu cür sırğaların bir ucu döyülərək yastılanmış, ziqzaqlı formaya salınmış, sırğanın ucuna deyil gövdəsinə bərkidilmişdir. Belə sırğalar Sarıdərə nekropolundan, Kolanı nekropolundan aşkar olunmuşdur [1, s. 97; 2, s. 180]. Onlardan birinə nazik tunc məftildən hazırlanmış halqa spiral, digərinə isə trapesiya formalı balıqqulağı keçirilmişdir.

Bu qəbildən olan sırğalar Sarıdərə nekropolundan aşkar olunmuşdur [1, s. 97]. Bu əşyalar praktiki əhəmiyyət daşımaqla bərabər, həm də öz sahiblərini bəd qüvvələrdən və uğursuzluqlardan qorumaq məqsədilə də istifadə olunmuşdur. Balıqqulağından istifadə balıq kultunun yayılması ilə əlaqədar olmuşdur. Kolanı nekropolunun qəbirlərində balıqqulağına rast gəlinməsi məhz bu inancın təzahürü idi [1, s. 145]. Ön Asiyanın Neolit dövrü abidələrindən də məlum olan bu adət olduqca qədimdir. Şübhəsiz xarakterik adətin yayılmasında qədim tayfaların köçü, iqtisadi-mədəni əlaqələr də təsirsiz ötüşməmişdir. Naxçıvan abidələrində balıqqulağından hazırlanmış muncuqların, üzəri mavi şirlə örtülmüş pastadan olan bəzək əşyalarının, Ön Asiya tipli xəncərlərin yayılması da bu fikri təsdiq edir. Qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin olduğu Ön Asiya sənətkarlarının əldə etdikləri texnoloji yeniliklərin tətbiqi Son Tunc dövrünə aid Cənubi Qafqaz tipli xəncərlərin istehsalında da müəyyən iz buraxmışdır. Araşdırmalar göstərmişdir ki, Ön Asiya ölkələrindəki texnoloji yeniliklər yerli sənətkarlar tərəfindən inkişaf etdirilərək tətbiq edilmiş və lokal mədəniyyətin bir sıra xüsusiyyətlərinə təsir etmişdir [2, s. 145].

Forma və kəsik xüsusiyyətləri baxımından bilərziklərə bənzəyən üzüklər də əsasən iki qrupa ayrılır. Birinci qrupun üzükləri nazik və qalın tunc məftildən hazırlanmış, ucları ayrı, bitişik, bir-birinin üzərinə oturdulmuş formadadır. Bu cür sadə üzüklər Sarıdərə nekropolundan, Kolanı nekropolundan, Bayəhməd nekropolllarından aşkar olunmuşdur [1, s. 97, s. 114]. Kolanı nekropolunun üzüklərindən biri konus adlı dəniz heyvanının qabığından hazırlanmışdır [1, s. 114]. Üzüklərin bəziləri spiralşəkilli, üç qatlı halqa formasındadır. Bu cür üzüklər Kolanı nekropolu, Hakkıxlıq nekropolundan [1, s. 102, s. 114] aşkar olunmuşdur. İkinci qrupun üzükləri isə nazik tunc təbəqədən hazırlanmış, bəziləri naxışlıdır. Kolanı nekropolunun üzükləri sadədir [1, s. 114]. Sarıdərə nekropolundan bir üzük isə ucu düz cızma xətlərlə bəzədilmişdir [1, s. 97]. Bayəhməd nekropolundan bir üzük isə enli tunc təbəqədən, spiralşəkilli burularaq hazırlanmışdır [1, s. 119]. Üzüyün xarici səthi içərisi nöqtələrlə qravürə olunmuş birləşik üçbucaqlarla bəzədilmişdir.

Müxtəlif saç bəzəkləri arasında nazik tunc təbəqədən hazırlanmış diskşəkilli, trapes formalara da rast gəlinmişdir. Kolanı nekropolundan diskşəkilli tunc lövhələrdən biri halqaşəkilli çıxıntılı olub, üçbucaqşəkilli şəbəkələrlə naxışlanmışdır [1, s. 115]. İkinci diskin üzəri döymə nöqtələrlə bəzədilmiş, kənarına iki ədəd kiçik deşik açılmışdır [1, s. 115]. Bayəhməd nekropolundan aşkar olunmuş iki ədəd tunc lövhələrdən biri diskşəkilli, digəri trapes formalıdır [1, s. 119, s. 120]. Onların üzəri qabartma və döymə nöqtələrlə qravürə edilmişdir, müəyyən deşiklər açılmışdır. Bu cür bəzək əşyaları Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən məlumdur.

Bəzək əşyaları arasında asmalar da geniş yayılmışdır. Asmalar bikonik, nalşəkilli, 8 rəqəminə bənzər, eynəkşəkilli, dairəvi, zəng, həmçinin quş modellərində olmasına görə bir-birindən fərqlənirlər. Asmalar sırğa, bilərzik, boyunbağı və s. əşyaların, bəziləri saç və geyim bəzəyi kimi istifadə olunmuşdur. Bikonik, nalşəkilli, 8 rəqəminə bənzər, trapesiya formalı asmalar Sarıdərə nekropolundan aşkar olunmuşdur [1, s. 98, s. 115]. Asmalar əsasən tuncdan hazırlansa da, 8 rəqəminə bənzər asma sümükdən hazırlanmışdır. Bikonik asmalar iki sıra üçkünc, trapesiya formalı asma üçkünc və paxlavaşəkilli şəbəkələrlə, nalşəkilli asma hər iki ucu kiçik yuvarlaq deşiklə bəzədilmişdir. Kiçik yuvarlaq deşiklər təyinatı bəlli olmayan metal əşyalardan birində də açılmışdır. Sarıdərə nekrpolundan aşkar olunmuş kənarları yarımçevrə formasına salınmış düzbucaqlı tunc metalın ortası bir qədər qabardılmışdır [1, s. 98]. Bənzər deşikli bəzək əşyalarından biri sümükdən hazırlanmış və aypara formalıdır. Deşiklərin çoxluğu onların paltara və yaxud saç bəzəyinə bərkidildiyini deməyə əsas verir. Üçbucaq şəbəkələrlə bəzədilmiş tunc zəng modelləri Qızılburun nekropolunun zəngin materialları arasında yer almışdır [4, s. 117]. Analoji tunc zəng asqıları Gəncə rayonunun Bayan kəndi [5, s. 237] məlumdur. Azsaylı nümunələr arasında Qızılburun nekropolundan əldə olunmuş dairəvi asma da özünəməxsusluğu ilə seçilir [4, s. 117]. Onun üzəri tamamilə üçbucaq şəbəkəlidir. Asqı üçün çıxıntının mərkəzində yuvarlaq deşik açılmışdır.

Qızılburun nekropolunun tək nümunələrlə akşar olunmuş tunc asqıları da forma, bədii həlli baxımından olduqca diqqətəlayiqdir. Maraqlı asqılardan biri bikonik formada lehimləmə üsulu ilə hazırlanmışdır [4, s. 118]. Nalşəkilli formalı asqının uzun çıxıntı hissəsinə 26 sm uzunluğunda tunc zəncir keçirilmişdir [4, s. 118]. Zəncir qırıq olduğundan onun uclarda necə bağlandığı məlum deyil. Uzunluğu 25-31 sm arasında dəyişən zəncirlər Sarıdərə, Qızılburun nekropollarından aşkar olunmuşdur [1, s. 98, s. 118].

Eynəkşəkilli asmalar bir qayda olaraq iki halqa spiral şəklində olur. Bununla belə az sayda olsa da başqa modellərinə də rast gəlmək mümkündür. Bu qəbildən olan eynəkşəkilli asmalar Naxçıvanın Orta Tunc dövrü abidələrindən məlumdur. Spiral kimi burulmuş eynəkşəkilli asmalar Sarıdərə, Kolanı, Qızılburun nekropollarından aşkar olunmuşdur [1, s. 98, s. 114; 4, s. 118]. Analoji tunc asmalar Xanlar və Mingəçevirdən məlumdur [6, s. 28; 3, s. 98].

Spiralvari naxışlar özündən əvvəlki dövürlərdə keramika, metal əşyaların üzərinə geniş tətbiq olunmaqla Son Tunc və Erkən Dəmir dövrünün də sevilən naxışlarından, formalarından biridir. Tunc boyunbağıların ucları, sancaqların başları döyülərək yastılanmış, az və ya çox spiralvari burulmuşdur. Kolanı nekropolunun bilərzik, ya da ayaq halqası adlandırılan tunc əşyaların bir ucu döyülərək lent şəklinə salınmış və spiral formasında qıvrılaraq digər ucuna bərkidilmişdir [2, s. 181]. Kolanı nekropolunun boyunbağıların bəzən bir ucu, bəzən də hər iki ucu döyülərək lent şəklinə salınmış və spiral şəklində burulmuşdur [2, s. 182, s. 183]. Həmçinin spiralşəkilli üzüklərə də rastlanmışdır [2, s. 182]. Bayəhməd nekropoluna aid iki ədəd tunc üzük isə nazik tunc təbəqəsindən hazırlanaraq spiral şəklində burulmuşdur. Üzüyün iç təbəqəsi nöqtələrlə doldurulmuş birləşik üçbucaqlarla naxışlanmışdır [2, s. 178]. Bu tip üzüklərə Naxçıvanda indiyədək rastlanmamışdır. Kolanı nekropolundan tapılan 1 ədəd tunc sancağın baş tərəfi döyülərək spiral şəklində bururlmuşdur [2, s. 183].

Son Tunc və Erkən Dəmir dövründə sancaqlar əsas bəzək əşyalarından olmuşdur. Bu tip əşyalar Culfa, Qızılburun və Qarabağlar qəbir abidələrindən məlumdur [4, s. 119]. Sancaqlar əsasən başlıqlarının formalarına, ölçülərinə, incə və qalın və s. hazırlanmalarına görə bir-birindən fərqlənir. Estetik məziyyətləri baxımından fərqlənən müxtəlif formalı başlıqlar yivli, qarmaqşəkilli, şişpapaqlı, öküz və keçi başı və s. formalarda hazırlanmışdır. Fərqli ölçülü sancaqların bəzilərinin ucları kəskin, bəziləri azacıq yuvarlaqdır. Əsasən tökmə üsulu ilə hazırlanmış tunc sancaqların bəzilərinin üzərində sonradan işləmələr aparılmışdır. Cızma, kəsmə, deşikaçma üsullarının tətbiqi ilə sadə naxış elementləri də yaradılmışdır. Sancaqların baş hissəsinə doğru açılmış deşiyə metal halqa keçirilməsi yalnız bir nümunədə rast gəlinir [4, s. 119]. Əvvəlki dövrlərdə deşiklərə tunc halqanın keçirilməsinə rast gəlinmədiyi üçün bu dövrün bədii yanaşması hesab etmək olar. Orta Tunc dövrü sancaq başlıqları üçün ənənəvi olan konusvari formalar bu dövrdə sıradan çıxsa da az sayda rast gəlinir. Onlar səliqəsiz, kobud hazırlanması ilə diqqəti cəlb edir.

Sancaq başlıqlarının heyvan kəlləsi formasında hazırlanması Son Tunc və Erkən Dəmir dövrü üçün xarakterik olmuşdur. Qarabağlardan aşkar olunmuş nümunələrdən biri qoyun, digəri keçi başı formasındadır [4, s. 119]. Qoyun, keçi məhsuldarlıq rəmzi olaraq tunc tayfalarının həyatında mühüm əhəmiyyətə malik olmuşdur. Keçi və qoyun Naxçıvan tayfalarının əsas inam mənbələrindən biri olmuşdur.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü bəzək əşyaları zəngin bədii, estetik tutuma malikdir. Formanın çeşidliliyi, ornamental ritmikanın müxtəlifliyi əvvəlki dövr bəzək nümunlərində formalaşan ənənlərlə yanaşı müstəqil şəkildə inkişaf etmiş xüsusiyyətləri də özündə əks etdirir. Bu dövrdə totemistik inancların da yayılması bəzək əşyalarına da təsir etmişdir. Quş fiqurlarını yansıdan tunc asqılar, ilan başlıqlı bilərziklər, keçi, qoyun başlıqlı sancaqlar məhz totemistik inancların inkişafı ilə əlaqədar olmuşdur.

***AMEA Naxçıvan Bölməsi**
**AMEA Naxçıvan Bölməsinin dissertantı**
**E-mail: quliyevafizze34@gmail.com***

## ƏDƏBİYYAT

1. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
2. Baxşəliyev V.B. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
3. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Элм, 1959, 191 с.
4. Бахшалиев В.Б. Древняя Металлурргия и металлообработка на территории Нахичевани. Баку: Элм, 2005, 119 с.
5. Берцелиус-Налчагаров, С.А. Раскопки в окрестностях села Баян Ганджинского уезда // Издательство Азкомстариса, 1928, выпуск I, с.231-238.
6. Гуммель Я.И. Погребальный курган около Еленендорфа. Баку: Аз ГНИИ, 1931, 31 с.
7. Мурадова Ф.М. Гобустан в эпоху бронзы. Баку: Элм, 1979, 117 с.
8. Садыхзаде Ш.Г. Древние украшения Азербайджана. Баку: Ишыг, 1971, 16 с.
9. Шарифов Д. Раскопки близ села Човдар Ганджинского уезда. Москва: Издательство Азкомстариса, 1928, в. IV, с. 239-260.
10. Schaeffer C.F. Stratigraphie comparee et chronologie de l`Asie Occidental. London: 1948, 654 p.

**Fizze Guliyeva**

## ARTİSTİC CHARACTERİSTİCS OF LATE BRONZE AND EARLY İRON AGE DECORATİVE THİNGS OF NAKHCHİVAN

The aesthetics of Nakhchivan's Late Bronze and Early Iron Age decorative things reflects the ideological views and belief systems of the tribes living in this period, as well as the traditions of craftsmanship. The reflection of geometric, as well as astral, zoomorphic elements in decorative things was due to the development of the cult of water, sun, snake, goat and their protective function. Traditionally, the vast majority of ornaments have been found in graves. The burial of a dead person with decorative things during burial rites is based on views on eternal life and the existence of the other world. The ancient tribes believed that decorative things had the power to protect the human soul from bad spirits and forces of evil even after death. Undoubtedly, magic prayers were recited to increase the power of such things. The aesthetics of Late Bronze and Early Iron Age decorative things are works of art that live the culture, art and worldview of the ancient Nakhchivan tribes. The aesthetics of decorative things shared very similarities with the aesthetic views of the Khojaly-Gadabay tribes.

**Keywords:** *Nakhchivan, jewelery, ancient period, aesthetics, late bronze and early iron, ornament, belief.*

**Физзе Кулиева**

## ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ УКРАШЕНИЙ ПОЗДНЕГО БРОНЗОВОГО И РАННЕГО ЖЕЛЕЗНОГО ВЕКА НАХЧЫВАНА

Эстетика украшений эпохи поздней бронзы и ранней железы Нахчывана отражает идеологические взгляды и системы верований племен, живших в этот период, а также традиции ремеслян. Отражение геометрических, а также астральных, зооморфных элементов в украшениях было обусловлено развитием культа воды, солнца, змеи, козы и их защитной функции. Традиционно большинство украшений было найдено в могилах. Погребение мертвого человека с украшениями во время погребальных обрядов основано на его взглядах на вечную жизнь и существование потустороннего мира. Погребение мертвого человека с украшениями во время погребальных обрядов основано на его взглядах на вечную жизнь и существование потустороннего мира. Древние племена считали, что украшении способны

защитить человеческую душу от злых духов и сил зла даже после смерти. Несомненно, перед исползованием магические молитвы были прочитаны, чтобы увеличить силу таких вещей. Эстетика украшений поздней бронзы и ранней железы произведения искусства, которые воплощают культуру, искусство и мировоззрение древних нахчыванских племен. Эстетика украшений очень похожа на эстетические взгляды ходжалинско-гадабайских племен.

**Ключевые слова:** *Нахчыван, украшения, древний период, естетика, поздняя бронза и раняя железа, орнамент, вера.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 01.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**